B) Audit

C) Layihə

D) Tənzim

E) İdarə

Testin çətinlik dərəcəsi: asan

İstinad: AZS İSO/İEC 17025. Bakı, 2020, səh.32

97. Laboratoriya ilə bağlı auditin yerinə yetirilməsi intervalı necə təyin edilir?

A) İstənilən vaxt

B) Rəhbərin qərarı ilə

C) İcra orqanının istəyi lə

D) Planlaşdırılmış

E) Planlaşdırılmamış

Testin çətinlik dərəcəsi: asan

İstinad: AZS İSO/İEC 17025. Bakı, 2020, səh.32

98. Daxili audit üzrə təlimatları təmin edən standart hansıdır?

A) İSO 19010

B) İSO 19111

C) İSO 09011

D) İSO 19021

E) İSO 19011

Testin çətinlik dərəcəsi: orta

İstinad: AZS İSO/İEC 17025. Bakı, 2020, səh.33

99. Daxili audit laboratoriyanın hansı sistemində nəzərə alınmalıdır?

A) İdarə

B) Nəzarət

C) Tənzim

D) Qiymətləndirmə

E) Layihə

Testin çətinlik dərəcəsi: asan

İstinad: AZS İSO/İEC 17025. Bakı, 2020, səh.29

100. Daxili audit uyğunluqla bağlı hansı xidməti yerinə yetirir?

A) Laboratoriya fəaliyyətləri daxil olmamaqla, idarəetmə sistemi ilə bağlı tələblər

B) Laboratoriya fəaliyyətləri daxil olmaqla, idarəetmə sistemi ilə bağlı tələblər

C) Laboratoriya fəaliyyətləri daxil olmamaqla, nəzarət sistemi ilə bağlı tələblər

D) Laboratoriya fəaliyyətləri daxil olmamaqla, layihələndirmə sistemi ilə bağlı tələblər

E) Laboratoriya fəaliyyətləri daxil olmaqla, nəzarət sistemi ilə bağlı tələblər

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AZS İSO/İEC 17025. Bakı, 2020, səh.32

101. İdarəetmə sisteminə dəyişikliklər planlaşdırıldıqda və həyata keçirildikdə sistemin bütünlüyünün qorunub saxlanılmasını kim təmin etməlidir?

A) Müəssisə rəhbəri

B) İcra orqanı

C) Laboratoriya rəhbərliyi

D) Sərəncamverici orqan

E) Həmkarlar təşkilatı

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AZS İSO/İEC 17025. Bakı, 2020, səh.7

102. Laboratoriya işləri ilə əlaqədar riskləri və imkanları nəzərdən keçirməyi xarakterizə edən variantı göstərin.

A) Nəzarətdə saxlamaq və düzəltmək üçün tədbir görmək

B) Uyğunsuzluqları nəzərdən keçirmək və təhlil etmək

C) Görülmüş güzəldici fəaliyyətlərin effektivliyini qiymətləndirmək

D) İdarəetmə sisteminin nəzərdə tutulan nəticələrə nail olmasını təmin etmək

E) Fəaliyyətlərin effektivliyini qiymətləndirmək

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AZS İSO/İEC 17025. Bakı, 2020, səh.30

103. Laboratoriyanın rəhbərliyi idarəetmə sisteminin icrası ilə bağlı nəzərdə tutulmuş siyasət və məqsədlər daxil olmaqlasistemin hansı elementlərini ardıcıl planlaşdırılmış intervalda təhlil etməlidir?

A) Sadəlik, adekvatlıq və effektivlik

B) Uyğunluq, adekvatlıq və interperasiya

C) Operativlik, adekvatlıq və effektivlik

D) Uyğunluq, adekvatlıq və qərəzsizlik

E) Uyğunluq, adekvatlıq və effektivlik

Testin çətinlik dərəcəsi: çətin

İstinad: AZS İSO/İEC 17025. Bakı, 2020, səh.33

104. Akkreditasiya attestatında müəyyənləşdirilmiş çərçivədə yoxlamanı həyata keçirmək akkreditasiyadan keçmiş metroloji xidmətin nəyini xarakterizə edir?

A) Hüququnu

B) Nəzarətini

C) İdarəsini

D) Məsuliyyətini

E) Elmliliyini

Testin çətinlik dərəcəsi: asan

İstinad: A.M.Qafarov. Metrologiya, Standartlaşdırma, Sertifikatlaşdırma. Bakı, 2012, səh.256

105. Attestatların nəyi olduğu zaman hüquqi qüvvəyə malik olur?

A) Nomenklaturası

B) Reyster qeydiyyat nömrəsi

C) Fərdi analiz qiyməti

D) Şkala dərəcələri

E) Protokol nümunəsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: A.M.Qafarov. Metrologiya, Standartlaşdırma, Sertifikatlaşdırma. Bakı, 2012, səh.434

106. Dövri attestasiya zamanı nəticələr hansı sənədlə rəsmiləşdirilir?

A) Akt

B) Şəhadətnamə

C) Protokol

D) Qaimə

E) Rekvizit

Testin çətinlik dərəcəsi: asan

İstinad: A.M.Qafarov. Metrologiya, Standartlaşdırma, Sertifikatlaşdırma. Bakı, 2012, səh.259

107. Sertifikat üzərində düzəlişlərin aparılması necə yerinə yetirilir?

A) Əlavə bənd yazmaqla

B) Səhvi silməklə

C) Xüsusi damğa vurmaqla

D) Yolverilməzdir

E) Rəngləməklə

Testin çətinlik dərəcəsi: asan

İstinad: A.M.Qafarov. Metrologiya, Standartlaşdırma, Sertifikatlaşdırma. Bakı, 2012, səh.431

108. Ölçmə vasitəsinin tam işlənməsi dövründə ilkin yoxlamalar arası intervalın sonrakı düzəlişlə sərbəst təyin edilməsi nəyi xarakterizə edir?

A) Serttifikatsız attestasiyanı

B) Xarici təsiri

C) Ümumi attestasiyanı

D) Növbədənkənar yoxlamanı

E) Yoxlamalararası intervalı

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.M.Qafarov. Metrologiya, Standartlaşdırma, Sertifikatlaşdırma. Bakı, 2012, səh.205

109. Dövri attestasiya zamanı müəyyənləşdirilmiş attestatın verilməsi ilə bağlı qeydlər harada aparılır?

A) İstismar sənədlərində

B) Fərdi protokolda

C) Xüsusi şəhadətnamədə

D) Layihə sənədlərində

E) Ümumi aktlarda

Testin çətinlik dərəcəsi: orta

İstinad: A.M.Qafarov. Metrologiya, Standartlaşdırma, Sertifikatlaşdırma. Bakı, 2012, səh.259

110. Sistem çərçivəsində istifadə edilən və verilən sənədlərin dili nə zaman fərqli verilə bilər?

A) Komitənin rəyi əsasında

B) Sifarişçinin arzusu ilə

C) Layihələndirmə zamanı

D) Xüsusi qeyd tələb edildikdə

E) Şəhadətnamə bəndləri uyğun olduqda

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.M.Qafarov. Metrologiya, Standartlaşdırma, Sertifikatlaşdırma. Bakı, 2012, səh.205

111. Tərtib olunan sənədin hüquqi qüvvəyə minməsi üçün hansı işi yerinə yetirmək lazımdır?

A) Cavablandırmaq

B) Layihələndirmək

C) Rəsmiləşdirmək

D) Arxivləşdirmək

E) Ekspertiza etmək

Testin çətinlik dərəcəsi: asan

İstinad: T.Qalib. Kargüzarlıq. Bakı, 2020, səh.52

112. Sənədi formalaşdıran bir sıra elementlər toplusu necə adlanır?

A) Protokol

B) Akt

C) Müraciət

D) Rekvizit

E) Məktub

Testin çətinlik dərəcəsi: asan

İstinad: T.Qalib. Kargüzarlıq. Bakı, 2020, səh.52

113. Müəssisələrdə sənədlərin alınması vaxtından və ya hazırlanmasından icra olunmasına qədər olan hərəkətə nə deyilir?

A) Akt tərtibi

B) Protokol qəbulu

C) Sənəd növü

D) İmzalanmayan sənəd

E) Sənəd dövriyyəsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: E.Musayev. Kargüzarlığın təşkili. Bakı, 2003, səh.148

114. Struktur üzrə xaric edilən sənəd kim tərəfindən imzalanmalıdır?

A) Rəhbər

B) Mütəxəssis

C) Kargüzar

D) İnzibatçı

E) Baş mütəxəssis

Testin çətinlik dərəcəsi: asan

İstinad: E.Musayev. Kargüzarlığın təşkili. Bakı, 2003, səh.151

115. Düzgün tərtib edilməmiş sənədlər kimə qaytarılmalıdır?

A) Rəhbərə

B) İcraçılara

C) İnzibatçıya

D) Mütəxəssisə

E) Dəftərxanaya

Testin çətinlik dərəcəsi: asan

İstinad: E.Musayev. Kargüzarlığın təşkili. Bakı, 2003, səh.151

116. Daxili sənədlərin idarə daxilində yerinə yetirilmə ardıcıllığını göstərin.

A) İcra, tərtib edilmə və hazırlanma

B) Tərtib edilmə, hazırlanma və icra

C) Hazırlanma, tərtib edilmə və icra

D) Qeydiyyat, tərtib edilmə və icra

E) İcra edilmə , tərtib və qeydiyyat

Testin çətinlik dərəcəsi: asan

İstinad: E.Musayev. Kargüzarlığın təşkili. Bakı, 2003, səh.152

117. Sənədin bir quruluş üzərindən digərinə verilməsi hansı struktura bildirilməlidir?

A) Ümumi şöbə

B) Təchizat şöbəsi

C) Operativ idarə

D) Dəftərxana

E) Rəhbərlik

Testin çətinlik dərəcəsi: orta

İstinad: E.Musayev. Kargüzarlığın təşkili. Bakı, 2003, səh.152

118. Quruluş bölmələrdə sənədlərin icrasına nəzarət kim tərəfindən yerinə yetirirlir?

A) İstənilən şəxs

B) Mühəndis

C) Baş işçi

D) Baş mühəndis

E) Kargüzarlıq üçün məsul şəxs

Testin çətinlik dərəcəsi: asan

İstinad: E.Musayev. Kargüzarlığın təşkili. Bakı, 2003, səh.152

119. Rəhbərlik tərəfindən nəzərrə alınmalı olan və icra müddətləri göstərilməyən tapşırıqlara hansı müddət ərzində baxılmalıdır?

A) Təcili cavabları tələb olunan sənədlərə 10 günədək

B) Təcili cavabları tələb olunan sənədlərə 20 günədək

C) Təcili cavabları tələb olunan sənədlərə 15 günədək

D) Təcili cavabları tələb olunan sənədlərə 25 günədək

E) Təcili cavabları tələb olunan sənədlərə 30 günədək

Testin çətinlik dərəcəsi: çətin

İstinad: E.Musayev. Kargüzarlığın təşkili. Bakı, 2003, səh.161

120. Hansı halda sənədlər üzrə icranın müddətini uzatmaq mümkündür?

A) Heç bir halda

B) Məsul icraçının sübütları olduqda

C) Rəhbərin göstərişi olduqda

D) Mühəndisin istəyi olduqda

E) Xüsusi sifariş olduqda

Testin çətinlik dərəcəsi: orta

İstinad: E.Musayev. Kargüzarlığın təşkili. Bakı, 2003, səh.161

121. Rəhbəri sənədlərin icrasının nəticələri haqqında kim məlumatrlandırır?

A) Təftiş xidməti

B) Dəftərxana

C) Nəzarət xidməti

D) Audit

E) Təchizat xidməti

Testin çətinlik dərəcəsi: asan

İstinad: E.Musayev. Kargüzarlığın təşkili. Bakı, 2003, səh.161

122. Sistem üzrə tapşırıqlar hansı struktura malikdir?

A) İzafi

B) Fərdi

C) Xüsusi

D) İerarxik

E) Dinamik

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi Baş Hesablama Mərkəzi. Elektron kargüzarlıq sistemi. Bakı, 2010, səh. 60

123. İcra müddəti göstərilərək nəzarətə götürülən tapşırıqlar necə adlanır?

A) Tarazlanan

B) Mənbəyi olan

C) Tənzimlənən

D) İdarə edilən

E) Nəzarətdə olan

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi Baş Hesablama Mərkəzi. Elektron kargüzarlıq sistemi. Bakı, 2010, səh. 60

124. Aşağıda qeyd olunanlardan hansının iş vaxtı güzəştindən istifadə etmək hüququ vardır?

A) 16 yaşınadək işçilər

B) 20 yaşınadək işçilər

C) 19 yaşınadək işçilər

D) 18 yaşınadək işçilər

E) 21 yaşınadək işçilər

Testin çətinlik dərəcəsi: asan

İstinad: T.Qalib. Kargüzarlıq. Bakı, 2020, səh.368

125. Natamam iş vaxtı kimlərin razılığı əsasında təyin olunur?

A) Baş mühəndis və mühəndis

B) İşçi və işəgötürən

C) Fiziki şəxs və fərdi şəxs

D) Mühəndis və mütəxəssis

E) Rəhbər və həmkarlar

Testin çətinlik dərəcəsi: orta

İstinad: T.Qalib. Kargüzarlıq. Bakı, 2020, səh.372

126. İşçinin iş vaxtından artıq işlərə cəlb edilməsi üçün hansı addım atıla bilər?

A) Rəhbərin razılığını almaq

B) Rəhbərin qərarını əsas tutmaq

C) İşçinin razılığını almaq

D) İşçinin əvəzləşdirici gün ilə təmin etmək

E) Mütəxəssis rəyini qəbul etmək

Testin çətinlik dərəcəsi: orta

İstinad: T.Qalib. Kargüzarlıq. Bakı, 2020, səh.379

127. Müəssisədə aparılan təlimatların növlərini göstərin.

A) Giriş, ilkin, ümumi və fərdi

B) Xüsusi, ilkin, dövri və növbədənkənar

C) Xüsusi, ilkin, dövri və fərdi

D) Giriş, ilkin, dövri və növbədənkənar

E) Giriş, ilkin, dövri və fərdi

Testin çətinlik dərəcəsi: orta

İstinad: G.Fərəcova. İş Şəraitində Əmək, Təhlükəsizlik və Sağlamlıq Qaydaları. Bakı, 2019, səh.8

128. İşə yeni qəbul edilən və ya müəssisəyə ezam edilən fəhlə və qulluqçular məcburi qaydada təhlükəsizlik texnikası üzrə hansı təlimatı almalıdır?

A) Növbədənkənar

B) Fərdi

C) Dövri

D) İlkin

E) Giriş

Testin çətinlik dərəcəsi: asan

İstinad: G.Fərəcova. İş Şəraitində Əmək, Təhlükəsizlik və Sağlamlıq Qaydaları. Bakı, 2019, səh.8

129. İş yerində işçilərin məhsuldarlığını ölçmək və buna əsasən mükafat təyin etmək üçün istifadə edilən fəaliyyət hansıdır?

A) Qiymətləndirmə

B) Dəyərləndirmə

C) Analiz etmə

D) Tənzimləmə

E) Təriflémə

Testin çətinlik dərəcəsi: orta

İstinad: M.Əliyev. Biznesdə insan resurslarının idarə edilməsi. Bakı, 2013, səh.328

130. Qiymətləndirilən dövr ərzində görülən işləri nəzərdən keçirir və qiymətləndirilməyə hazırlaşır. Bu kimin fəaliyyətini tənzimləyir?

A) Rəhbərin

B) Qiymətləndirilən işçinin

C) Yeni qəbul olan işçinin

D) Sahə üzrə işçinin

E) Aparat üzrə işçinin

Testin çətinlik dərəcəsi: asan

İstinad: M.Əliyev. Biznesdə insan resurslarının idarə edilməsi. Bakı, 2013, səh.339

131. İşçinin xidməti vəzifəsi ilə bağlı məlumatları praktiki olaraq kim həyata keçirir?

A) İdarə heyəti

B) Mütəxəssis

C) Şöbə rəhbəri

D) Operator

E) Kadr

Testin çətinlik dərəcəsi: orta

İstinad: M.Əliyev. Biznesdə insan resurslarının idarə edilməsi. Bakı, 2013, səh.256

132. Kadr seçimi zamanı müsbiqədən keçməyən namizədləri məlumatlandırmaq hansı müddətdə yerinə yetirilə bilər?

A) İki ay ərzində

B) Bir saat ərzində

C) İki-üç saat ərzində

D) Bir-iki həftə ərzində

E) Bir ay ərzində

Testin çətinlik dərəcəsi: asan

İstinad: M.Əliyev. Biznesdə insan resurslarının idarə edilməsi. Bakı, 2013, səh.154

133. İşçinin gördüyü işə uyğun gəlməsini müəyyənləşdirən işçi seçimi ilə məşğul olan şəxs işin hansı vəziyyətini nəzərə almalıdır?

A) Xüsusi

B) Fərdi

C) Elementar

D) Operativ

E) Texniki

Testin çətinlik dərəcəsi: orta

İstinad: M.Əliyev. Biznesdə insan resurslarının idarə edilməsi. Bakı, 2013, səh.154

134. Rəhbər ilk öncə təlim ehtiyacı ilə bağlı nəyi araşdırmalıdır?

A) Şikayətlərin nəticələrini

B) Sahələr üzrə ehtiyacı

C) İstehsal həcmini

D) İnformasiya mübadiləsini

E) Daxili intizamın ardıcıllığını

Testin çətinlik dərəcəsi: orta

İstinad: M.Əliyev. Biznesdə insan resurslarının idarə edilməsi. Bakı, 2013, səh.240

135. Müəssisənin idarəetmə orqanları tərəfindən proseslərin optimallaşdırılması, qüsurlu proseslərin aradan qaldırılması, xərclərin aşağı salınması nəyi xarakterizə edir?

A) Xüsusi təhlili

B) Qiymətləndirmənin təhlilini

C) Yuxarıdan aşağıya təhlili

D) Aşağıdan yuxarıya təhlili

E) Fərdi təhlili

Testin çətinlik dərəcəsi: çətin

İstinad: M.Əliyev. Biznesdə insan resurslarının idarə edilməsi. Bakı, 2013, səh.447

136. Prosesin təhlili metodunu seçməkdə təşkilati qurum hansı statusa malikdir?

A) Üst qurum ilə əlaqəlidir

B) Fərdi qərar vermə statusuna malik deyil

C) Təhlil aparmaq statusu yoxdur

D) Müstəqildir

E) Üst quruma tabedir

Testin çətinlik dərəcəsi: orta

İstinad: M.Əliyev. Biznesdə insan resurslarının idarə edilməsi. Bakı, 2013, səh.448

137. Müəssisə və təşkilatların fəaliyyəti nəticəsində yaranmış sənədlərin saxlanma müddəti Hansı qanunla tənzimlənir?

A) Milli Arxiv İdarəsi Kollegiyasının 12.05.2016-cı il tarixli 3/1 saylı

B) Milli Arxiv İdarəsi Kollegiyasının 12.11.2016-cı il tarixli 3/1 saylı

C) Milli Arxiv İdarəsi Kollegiyasının 15.04.2016-cı il tarixli 3/1 saylı

D) Milli Arxiv İdarəsi Kollegiyasının 12.04.2017-cı il tarixli 3/1 saylı

E) Milli Arxiv İdarəsi Kollegiyasının 12.04.2016-cı il tarixli 3/1 saylı

Testin çətinlik dərəcəsi: çətin

İstinad: T.Qalib. Kargüzarlıq. Bakı, 2020, səh.642

138. Saxlanılma ilə bağlı tərtib edilən siyahı neçə hissədən ibarət olmalıdır?

A) 2

B) 5

C) 3

D) 8

E) 1

Testin çətinlik dərəcəsi: asan

İstinad: T.Qalib. Kargüzarlıq. Bakı, 2020, səh.643

139. Saxlanma ilə bağlı siyahılarda hər bir bölmə və ya yarımbölmə hansı elementlə xarakterizə edilir?

A) Damğalama

B) Nömrələmə

C) İşarələmə

D) Rəngləmə

E) Qatlanma

Testin çətinlik dərəcəsi: orta

İstinad: T.Qalib. Kargüzarlıq. Bakı, 2020, səh.643

140. Əmək haqqındakı qanunlar kodeksinin başlıca rol oynaması nə zaman baş verə bilər?

A) Layihə işləri tamamlandıqda

B) İstismar qaydaları dəyişdirkdə

C) Hüquqi normativlər üzrə reqlamentləşdirmə olduqda

D) Fərdi qaydada analiz aparıldıqda

E) Xüsusi əhəmiyyət kəsb edən qərar qəbul edildikdə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: M.Əliyev. Biznesdə insan resurslarının idarə edilməsi. Bakı, 2013, səh.242

141. Peşə standartlarının qiymətləndirilməsindən istifadə etməklə əldə olunan məlumata əsasən şəxsin işinə və iş qabiliyyətlərinə müvafiq olaraq hans tədbir yerinə yetirilə bilər?

A) Vəzifənin aşağı salınması

B) İşdən uzaqlaşdırılması

C) Xüsusi statusun verilməsi

D) Əmək haqqının artırılması

E) İş saatının azaldılması

Testin çətinlik dərəcəsi: çətin

İstinad: M.Əliyev. Biznesdə insan resurslarının idarə edilməsi. Bakı, 2013, səh.328

142. Struktur bölmənin işçiləri tərəfindən əməyin mühafizəsi, təhlükəsizlik texnikası, sanitariya və yanğından mühafizə norma və qaydalarına riayət edilməsinin təmin olunması Əmək Məcəlləsinin hansı bəndində öz əksini tapır?

A) 15-ci fəsil

B) 26-cı fəsil

C) 11-ci fəsil

D) 45-ci fəsil

E) 34-cü fəsil

Testin çətinlik dərəcəsi: asan

İstinad: M.Əliyev. Biznesdə insan resurslarının idarə edilməsi. Bakı, 2013, səh.457

143. Müvafiq iş yerlərində əməyin mühafizəsi tədbirlərinin təmin olunmasını və ya istehsal sanitariyasının, gigiyenasının vəziyyətini müəyyən etmək vəzifəsini kim icra etməlidir?

A) İşəgötürən

B) Mütəxəssis

C) Fərdi şəxs

D) Operator

E) Mexanik

Testin çətinlik dərəcəsi: asan

İstinad: M.Əliyev. Biznesdə insan resurslarının idarə edilməsi. Bakı, 2013, səh.461

144. Mülkiyyət formasından və təsərrüfat fəaliyyətindən asılı olmayaraq Azərbaycan Respublikasmın ərazisində yerləşən müəssisələrdə əmək şəraiti zərərli, ağır olan və yeraltı işlərdə çalışan işçilərin xəstəliklərinin qarşısını almaq məqsədilə hansı tədbir görülməlidir?

A) Pul və ya başqa mal

B) Süd və ya eyni keyfiyyətli yeyinti məhsulları

C) Eyni keyfiyyətli yeyinti məhsulları və pul

D) Süd və başqa mal

E) Başqa mal və ya əlavə istirahət günü

Testin çətinlik dərəcəsi: çətin

İstinad: M.Əliyev. Biznesdə insan resurslarının idarə edilməsi. Bakı, 2013, səh.457

145. İlkin təlimatın keçirilməsi hansı jurnalda rəsmiləşdirilməlidir?

A) İşçilərin fərdi keyfiyyətlərinin qeyd edildiyi jurnalda

B) İşçilərin davamiyyət jurnalında

C) İşçilərin vəzifə təlimatında

D) İşçilərin əməyin mühafizəsi üzrə təlimatlandırılmalarının Qeydiyyat və Uçot Jurnalı

E) Təlimatlandırma kitabında

Testin çətinlik dərəcəsi: orta

İstinad: M.Əliyev. Biznesdə insan resurslarının idarə edilməsi. Bakı, 2013, səh.470

146. Əməyin mühafizəsi ilə bağlı verilən kombinezonlar, yarımkombinezonlar, gödəkçələr, şalvarlar, kostyumlar, yarımşubalar, tuluplar, döşlüklər, jiletlər, qolcuqlar hansı kateqoriyanı səciyyələndirir?

A) Xilasedici vasitələr

B) Əlin mühafizə vasitələri

C) Xüsusi geyimlər

D) Nəfəs orqanlarının mühafizə vasitəsi

E) Üzün mühafizə vasitələri

Testin çətinlik dərəcəsi: asan

İstinad: M.Əliyev. Biznesdə insan resurslarının idarə edilməsi. Bakı, 2013, səh.467

147. Çirklənməyə qarşı mühafizəsi vasitələrini göstərin.

A) Yuyucu tozlar, pastalar, kremlər, mazlar

B) Əl tutacaqları, manipulyatorlar, dizliklər, dirsəkciklər

C) Səs-küy əleyhinə şlemlər, qulaqlıqlar

D) Mühafizə şiti və maskalar

E) Dəbilqələr, şapkalar, şlemlər

Testin çətinlik dərəcəsi: asan

İstinad: M.Əliyev. Biznesdə insan resurslarının idarə edilməsi. Bakı, 2013, səh.467

148. Gözün mühafizəsi vasitələri hansıdır?

A) Maska

B) Mühafizə eynəyi

C) Manipulyator

D) Krem

E) Tulup

Testin çətinlik dərəcəsi: asan

İstinad: M.Əliyev. Biznesdə insan resurslarının idarə edilməsi. Bakı, 2013, səh.467

149. İşçilərə ilkin təlimatı kim keçir?

A) Əməyin mühafizə şöbəsinin mühəndisi

B) Əməyin mühafizəsi şöbəsinin rəisi

C) Sahə və ya işin rəhbəri

D) Həmkarlar ittifaqı komitəsinin sədri

E) Müəssisənin direktoru

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.H.Bünyətov. Əməyin mühafizəsi (məlumat kitabı). Bakı, 2003. Səh. 127

150. İşçilərə ilkin təlimat harda keçirilir?

A) Baş mühəndisin yanında

B) İşçinin göndərildiyi sahədə

C) Həmkarlar ittifaqı komitəsində

D) Əməyin mühafizəsi otağında

E) Əməyin mühafizəsi şöbəsinin rəisinin yanında

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.H.Bünyətov. Əməyin mühafizəsi (məlumat kitabı). Bakı, 2003. Səh. 127

151. İş yerlərində əmək şəraiti dəyişərsə və ya hər hansı bir bədbəxt hadisə baş verərsə bu zaman işçilərə hansı təlimat keçirilməlidir?

A) Təkrar təlimat

B) İlkin təlimat

C) Növbədənkənar təlimat

D) Birdəfəlik təlimat

E) Giriş təlimat

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.H.Bünyətov. Əməyin mühafizəsi (məlumat kitabı). Bakı, 2003. Səh. 127

152. İş yerində təlimat öz növbəsində hansı təlimatlara bölünür?

A) İlkin, giriş və növbədənkənar

B) İlkin, vaxtaşırı, növbədənkənar və birdəfəlik

C) Giriş, vaxtaşırı, birdəfəlik və növbədənkənar

D) Giriş, vaxtaşırı və növbədənkənar

E) Giriş, ilkin, vaxtaşırı, birdəfəlik və növbədənkənar

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.Əhmədov, T.Rəhimov.İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. I cild. Bakı, 2010. Səh. 456

153. Normal əmək və istirahət rejiminə riayət edilməsinə uyğun 5 günlük iş həftəsində gündəlik normal iş vaxtının müddəti neçə saatdır?

A) 8 saatdan artıq olmamalıdır

B) 10 saatdan artıq olmamalıdır

C) 7 saatdan artıq olmamalıdır

D) 5 saatdan artıq olmamalıdır

E) 6 saatdan artıq olmamalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: S.Məmmədov, İ.Cavadova, A.Bəkirov. Əmək münasibətini tənzimləyən sənədlər. Bakı, 2005. Səh. 233

154. Normal əmək və istirahət rejiminə riayət edilməsinə uyğun 5 günlük iş həftəsində həftəlik normal iş vaxtının müddəti neçə saatdır?

A) 40 saatdan artıq olmamalıdır

B) 35 saatdan artıq olmamalıdır

C) 36 saatdan artıq olmamalıdır

D) 33 saatdan artıq olmamalıdır

E) 45 saatdan artıq olmamalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: S.Məmmədov, İ.Cavadova, A.Bəkirov. Əmək münasibətini tənzimləyən sənədlər. Bakı, 2005. Səh. 233

155. Təhlükəli və zərərli amillər hansı qruplara bölünür?

A) Kimyəvi, bioloji və psixofizioloji

B) Sosioloji, kimyəvi, bioloji və psixofizioloji

C) Bioloji və psixofizioloji

D) Fiziki və  kimyəvi və psixofizioloji

E) Fiziki, kimyəvi, bioloji və psixofizioloji

Testin çətinlik dərəcəsi: orta

İstinad: Y.Əhmədov, T.Rəhimov.İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. I-cild. Bakı, 2010. Səh. 456

156. İş yerlərində attestasiyanın keçirilməsi neçə müddətdən bir aparılır?

A) İki ildə bir dəfədən az olmayaraq

B) Dörd ildə bir dəfədən az olmayaraq

C)  Üç ildə bir dəfədən az olmayaraq

D) Beş ildə birdəfədən az olmayaraq

E)  İldə bir dəfədən az olmayaraq

Testin çətinlik dərəcəsi: orta

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. I cild. Bakı, 2010. Səh. 456

157. Qadınlar üçün əllə daşınan yüklərin yüklənib boşaldılması və daşınması zamanı çəkisi maksimum nə qədər olmalıdır ?

A) 25 kq-dan artıq olmamalıdır

B) 15 kq-dan artıq olmamalıdır

C) 30 kq-dan artıq olmamalıdır

D) 50 kq-dan artıq olmamalıdır

E) 10 kq-dan artıq olmamalıdır

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Neftqazçıxartma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2005. Səh. 526

158. Əl ilə yüklərin daşınması məsafəsi neçə metrdən artıq olduqda yüklərin daşınmasına icazə verilmir?

A) 80 metrdən artıq olduqda

B) 40 metrdən artıq olduqda

C) 60 metrdən artıq olduqda

D) 100 metrdən artıq olduqda

E) 120 metrdən artıq olduqd

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Neftqazçıxartma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2005. Səh. 526

159. Nə zaman yüklərin yüksəkliyə qaldırılmasına icazə verilir?

A) Yük qaldırılan meydança pilləkanla təchiz olunduqda və meydançanın hündürlüyü 3 m-dən çox olmadıqda

B) Yük qaldırılan meydança pilləkanla təchiz olunmadıqda və meydançanın hündürlüyü 3 m-dən çox olmadıqda

C) Yük qaldırılan meydança pilləkanla təchiz olunduqda və meydançanın hündürlüyü 4 m-dən çox olmadıqda

D) Yük qaldırılan meydança pilləkanla təchiz olunmadıqda və meydançanın hündürlüyü 4 m-dən çox olmadıqda

E) Yük qaldırılan meydança pilləkanla təchiz olunduqda və meydançanın hündürlüyü 5 m-dən çox olmadıqda

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Neftqazçıxartma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2005. Səh. 526

160. İstehsalat binalarında otaqların tavanı döşəmədən minimum nə qədər məsafədə olmalıdır?

A) 2 metrdən az olmamalıdır

B) 3 metrdən az olmamalıdır

C) 4 metrdən az olmamalıdır

D) 1 metrdən az olmamalıdır

E) 2,5 metrdən az olmamalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: Y.H.Bünyətov. Əməyin mühafizəsi. Məlumat kitabı. Bakı, 2003. Səh. 127

161. Elektrik cərəyanının təsirindən qoruyan mühafizə vasitəsini göstərin?

A) Dezaktivasiya vasitələri

B) Səsboğan

C) İzoləedici örtüklər və qurğular

D) Hermetikləşdirici qurğu

E) İşıq filtrləri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. II cild. Bakı, 2011. Səh. 500

162. Yer səthindən 2 metrdən yüksəklikdə iş aparılan zaman əsasən nədən istifadə olunmalıdır?

A) Rezin əlcəkdən

B) Xüsusi çəkmələrdən

C) Qulaqcıqdan

D) Eynəkdən

E) Qoruyucu kəmərdən

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. II cild. Bakı, 2011. Səh. 500

163. Nəfəs yollarının mühafizəsi üçün hansı mühafizə vasitələrindən istifadə olunur?

A) Şlanqlı əleyhqazlardan

B) Süzgəcli əleyhqazlar və qulaqcıqlardan

C) Süzgəcli, oksigenli əleyhqazlar və dəbilqədən

D) Resperatorlar, əleyhqazlar və eynəkdən

E) Resperator və  əleyhqazlardan

Testin çətinlik dərəcəsi: orta

İstinad: Müəssisələrdə texniki təhlükəsizlik və əməyin mühafizəsinin təşkilinə dair mühüm aspektlər. Bakı, 2008

164. Qapalı sınıqlar zamanı ilk tibbi yardım kimi nə etmək lazımdır?

A) Sadəcə həkimi gözləmək

B) Ağrıkəsici dərman vermək və tibb müəssisəsinə çatdırmaq

C) Şina qoyub tərpənməz vəziyyətdə saxlamaq, tibb müəssisəsinə çatdırmaq

D) Təmiz havaya çıxarmaqbintlə sarımaq

E) Deformasiya uğramış nahiyyəni düzləndirib bintlə sarımaq

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Tibb bacısının məlumat kitabı Bakı 2008

165. Bədbəxt hadisə nədir?

A) Texniki qurğuların dayanması, yaxud nasazlığı

B) İşçinin və ya işçilərin iş yerlərində alığı xəsarətdir

C) Texnoloji rejiminin pozulması

D) Nəzarət edilə bilməyən partlayış və yanğın

E) Təhlükəli maddələrin ətraf mühitə yayılması

Testin çətinlik dərəcəsi: asan

İstinad: Əməyin mühafizəsi və Texniki təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunları

166. İstehsalat təhlükəsi və ya zərərli amillərin təsirinin qarşısını alan və ya azaldan vasitələr necə adlanır?

A) Təhlükəsizlik vasitələri

B) Mühafizə vasitələri

C) Kollektiv vasitələri

D) Xilasetmə vasitələri

E) Xəbərvermə vasitələri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Əməyin mühafizəsi və Texniki təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunları

167. Yanan metalları nə ilə söndürmək olar?

A) Xüsusi təyinatlı tozlarla

B) Ümumi təyinatlı tozlarla

C) Köpüklə

D) Su ilə

E) Buxarla

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikası Qanunu Bakı-1997 Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları

168. Gərginlik altında olan avadanlıqlarda baş vermiş yanğını söndürərkən ilk növbədə nə etmək lazımdır?

A) Bölməni hermetikləşdirmək

B) Qəza bölməsini və avadanlıqları cərəyandan ayırmaq

C) Bölməni su ilə doldurmaq

D) Koşma ilə üstünü bağlamaq

E) Bölməni köpüklə doldurmaq

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikası Qanunu Bakı-1997 Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları

169. Yanğın həyəcan siqnalı verilərkən hansı fəaliyyətləri yerinə yetirmək lazımdır?

A) İşi dayandırmaq, toplantı məntəqəsinə getmək və növbəti komandanı gözləmək

B) İşi davam etmək və heyətdən yanğının söndürülməsinə nümayəndə ayırmaq

C) İşi dayandırmaq, əşyaları götürmək, otaqları bağlayıb ərazini tərk etmək

D) Bölməni hermetikləşdirmək və sahil yanğınsöndürmə dəstələrini gözləmək

E) Yanğın yerini axtarmaq və onu söndürməyə başlamaq

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikası Qanunu (Bakı-10.06.1997) Respublikasında yanğın təhlükəsizliyi qaydaları

170. Süni tənəffüs hansı yollar ilə verilir?

A) Yalnız ağızdan-ağıza

B) Yalnız ağızdan-buruna

C) Ağızdan-ağıza, ağızdan-buruna

D) Bədəni masaj etməklə

E) Əl və ayağı hərəkət etdirməklə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Müəssisələrdə texniki təhlükəsizlik və əməyin mühafizəsinin təşkilinə dair mühüm aspektlər. Bakı, 2008

171. Peşə xəstəliyi nədir ?

A) Əmək qabiliyyətini qismən itirməklə nəticələnən xəstəlik

B) Əmək qabiliyyətini müvəqqəti itirməklə nəticələnən xəstəlik

C) Vəzifəsini yerinə yetirərkən aldığı zərərli amillərin təsirindən yaranmış xəstəlik

D) Əmək qabiliyyətini tam itirməklə nəticələnən xəstəlik

E) Əmək qabiliyyətini 3 gündən az olmayaraq itirməklə nəticələnən xəstəlik

Testin çətinlik dərəcəsi: orta

İstinad: Müəssisələrdə texniki təhlükəsizlik və əməyin mühafizəsinin təşkilinə dair mühüm aspektlər. Bakı, 2008

172. Bədbəxt hadisə baş verən zamanı ilk növbədə iş rəhbərinin vəzifəsi:

A) Zərərçəkənə heç bir kömək etməməli və rəhbərliyə xəbər verməli

B) Həmkarlar ittifaqı təşkilatına xəbər verməli və tibb məntəqəsinə çatdırılmalı

C) Sanitariya-epidemioloji xidmətinə xəbər verməli və tibb məntəqəsinə çatdırılmalı

D) Zərərçəkənə ilk tibbi yardım göstərilməli və tibb məntəqəsinə çatdırılmasını təşkil etməli və rəhbərliyə xəbər verməli

E) Müəssisənin rəhbərliyinə və zərər çəkənin evinə məlumat verməli

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Neft Sənayesində Əməyin Mühafizəsinin Vahid İdarəetmə Sistemi. Bakı, 2004

173. Zərərli istehsalat amillərinin təsiri nəticəsində yaranan xəstəliy:

A) Peşə xəstəliyi

B) Sarılıq xəstəliyi

C) Sətəlcəm xəstəliyi

D) Şəkər xəstəliyi

E) Qızılça xəstəliyi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Neft Sənayesində Əməyin Mühafizəsinin Vahid İdarəetmə Sistemi. Bakı, 2004

174. Hansı hündürlükdən başlayaraq“Yüksəklikdə görülən işlər”anlayışı qüvvəyə minir?

A) 3.0 m

B) 2.5 m

C) 5.0 m

D) 1.8m

E) 2.10 m

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin qərarı ilə 2016-cı ildə təsdiq edilib. Hündürlükdə iş zamanı texniki təhlükəsizlik Qaydaları. Bakı, 2016

175. Kollektiv mühafizə vasitələri nədir?

A) Kənar şəxsləri qorumaq üçün tətbiq edilən vasitələr

B) Tək bir adamı qorumaq üçün tətbiq edilən vasitələr

C) Dəzgahları qorumaq üçün tətbiq edilən vasitələr

D) Bütün sex işçilərini qorumaq üçün tətbiq edilən vasitələr

E) İki və ya çox işçini qorumaq üçün tətbiq edilən vasitələr

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikası Əmək Məcəlləsi. Bakı, 1999

176. Təxliyyə (köçürmə) planları hansı binalarda tərtib olunur?

A) 10 nəfərdən çox insan olan

B) 100 nəfərdən çox insan olan

C) Hamısında

D) 17 nəfərdən çox insan olan

E) 27 nəfərdən çox insan olan

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

177. Yanğınsöndürmə vasitələrindən istifadə qaydalarını kimlər bilməlidirlər?

A) Sex rəisi

B) Fəhlələr və aparatçıla

C) Qulluqçular

D) Fəhlə və qulluqçuların hamısı

E) Ustalar və çilingərlər

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

178. Müəssisədə yanğın təhlükəsizliyi qaydalarına kimlər əməl etməlidir?

A) Fəhlə və qulluqçuların hamısı

B) Sex rəisi

C) Qulluqçular

D) Fəhlələr və aparatçılar

E) Ustalar çilingərlər

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

179. Yanğın təhlükəsizliyinə aid olan normativ sənədlər:

A) Standartlar, yanğın təhlükəsizliyi normaları, qaydaları və təlimatları

B) Dövlət Əmək Müfəttişliyi Xidməti haqqında Əsasnamə

C) Sanitariya-epidemioloji qaydalar haqqında Əsasnamə

D) Həmkarlar ittifaqının nizamnaməsi

E) Aktlar, xidməti yazılar və texniki təhlükəsizlik qaydaları

Testin çətinlik dərəcəsi: asan

İstinad: Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1997

180. Məişət və iş otaqlarında hansı elektrik cihazlarından istifadə etmək qadagandır?

A) Slaydoskopdan, telefondan, printerdən

B) Kompyuterdən, printerdən. Proyektordan

C) Kompyuterdən, telefondan, printerdən, kondisionerdən

D) Yüksək tezlikli sobadan, elektrik qızdırıcı cihazlardan, elektrik su qəfədanından

E) Proektordan, kondisionerdən, slaydoskopdan

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

181. Fövqəladə hal baş verərsə hansı nömrəyə zəng etmək lazımdır?

A) 112

B) 104

C) 102

D) 103

E) 101

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Fövqaladə Hallar Nazirliyinin qaynar xətti

182. Binalarda yanğına qarşı nə olmalıdır?

A) Pilləkan qəfəsində dəmir qapı

B) Köçürmə sxemləri və işarələri, xəbərdarlıq plakatları, yanğınsöndürmə vəsitələri

C) Təlimatın kecirilməsi üçün xüsusi otaq

D) Dəhlizdə qumla təchiz edilmiş yanğın lövhəsi

E) Mərtəbələrdə əlavə nərdivanla

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

183. Yanğın baş verən zaman ilkin yanğınsöndürmə vasitələrindən kimlər istifadə etməlidir?

A) Sex rəisi

B) Növbə rəisi

C) Fəhlə və qulluqçular

D) Texnoloq

E) Yanğın söndürmə komandiri

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

184. Yanğın aşkar etdikdə nə etməli?

A) Dərhal bələdiyyəyə xəbər vermək
B) Dərhal polis mühafizə bölməsinə xəbər vermək
C) İcra hakimiyyətinə xəbər vermək
D) Dərhal yanğından mühafizə bölməsinə xəbər vermək
E) Dərhal əmək müfəttişliyinə xəbər vermək
Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

185. Fərdi muhafizə vasitələri hansılardır?

A) Tənəffüs orqanları mühafizə vasitələri, dəri səthi mühafizə vasitələri və tibbi mühafizə vasitələri
B) Görmək və eşitmək üçün mühafizə vasitələri
C) Danışmaq üçün mühafizə vasitələri, dəri səthi mühafizə vasitələri
D) Anlatmaq üçün mühafizə vasitələri, ayaq üçün mühafizə vasitələri
E) İtdən və ilandan qorunmaq üçün mühafizə vasitələri
Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikası Əmək Məcəlləsi. Bakı, 1999